Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistan Azərbaycandan tam asılı vəziyyətə düşür...

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Cari ilin iyununda Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkiləri yaxınlaşdıqca, bu ölkədə siyasi müstəvidə vəziyyətin daha da gərginləşməsi müşahidə edilir. Yaranmış vəziyyətdə revanşist mövqedən çıxış edən qüvvələrin fəallaşması da özünü qabarıq büruzə verir. Ancaq reallıq belə qüvvələrin, əslində cəmiyyətdə hansısa ciddi dəstəyə malik olmadığını da qabarıq nümayiş etdirir.**



### Azərbaycan yenə Ermənistan ordusunu darmadağın etməyə hazırdır

Ermənistanda revanşist qüvvələrin, hakimiyyətə gəldiyi təqdirdə belə, Azərbaycanla bağlı hansısa addımlar atması mümkünsüz sayılır. İlk növbədə o baxımdan ki, Ermənistanın bundan sonra 44 günlük müharibə zamanı dağılmış ordusunu bərpa etməsinə uzun illər lazımdır. Digər tərəfdən, Ermənistan müasir ordu yaratmaq üçün hansısa real imkanlara da malik deyil. Bu mənada, Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının rəisi, general-leytenant Artak Davtyanın açıqlamaları xüsusi diqqət çəkir. O qeyd edir ki, Ermənistan lazımi dərslər çıxarmasa idi, 44 günlük müharibənin tam fərqli yekunu və fərqli müddəti olardı. Onun sözlərinə görə, Ermənistan atəşkəsə razılıq verməsəydi, vəziyyət daha acınacaqlı ola bilərdi: "Əlbəttə, ilk növbədə Qarabağı bütövlükdə itirərdik. İkincisi, biz bu döyüşləri 15-20 gündən sonra dayandırmalı idik".

Hadisələrin gedişi göstərir ki, Ermənistan üçün əsas çıxış yolu Azərbaycanla əməkdaşlığı bərpa etməkdir. Əks mövqedən çıxış edənlərə isə Azərbaycanın cavabı yenə çox sərt olacaq. Eyni zamanda, istənilən revanş cəhdi olarsa, Azərbaycan yenə Ermənistan ordusunu darmadağın etməyə hazırdır. Bunu rusiyalı ekspert Vladislav İsayev də xüsusi olaraq vurğulayır. O hesab edir ki, növbədənkənar parlament seçkilərində Azərbaycanla əməkdaşlığı istisna edən qüvvələrin Ermənistanda hakimiyyətə gəlməsi mümkün deyil. Belələrinə cəmiyyət hansısa dəstək verməyəcək: "İndi Ermənistanda vəziyyət mürəkkəbdir, növbədənkənar parlament seçkilərindən sonra hakimiyyət dəyişikliyi və revanşistlərin hökumət başına gəlməsi isə mümkünsüz görünür. O baxımdan ki, belə qüvvələr iqtidara gələrsə, bu halda Ermənistan üzərindən kommunikasiya açılması barədə danışmaq çətin olacaq. Yeni müharibə başlamasa yaxşıdır. Ümumilikdə isə, Ermənistanın döyüşmək üçün heç nəyi yoxdur, buna baxmayaraq, yumruq silkələmək istəyi yarana bilər. Nikol Paşinyan hakimiyyətdə qala bilsə, iqtisadi situasiyanı qaydaya salmalı, yeni nəqliyyat dəhlizlərinin açılmasına razılıq verməli olacaq. İndi Ermənistanın baş naziri, dolayı əlamətlərlə əlaqədar olaraq, müharibəni deyil, iqtisadiyyatın inkişafını dəstəkləyən Rusiyanın mövqeyindən çıxış edir. Onun rəqibləri, elcə də Ermənistanın ikinci prezidenti Robert Köçəryanı dəstəkləyən qüvvələr isə, əksinə, Moskvanın dəstəyini itirir. Bu da Paşinyan üçün sərfəlidir". Həqiqətən də 44 gün davam edən Vətən müharibəsinin nəticələrini əsas götürən müxalifət etiraz aksiyaları təşkil edərək, Nikol Paşinyanı bu yolla hakimiyyətdən uzaqlaşmağa vadar edəcəyini düşünsə də, hadisələrin sonrakı gedişi bu qüvvələrin yanıldığını göstərdi. Müxalifət partiyalarının birləşdiyi "Vətənin xilası uğrunda hərəkat" çoxsaylı etiraz aksiyaları təşkil etsə də, cəmiyyətdən lazımı dəstək ala bilmədi. Bununla belə, hazırda Ermənistanda mövcud siyasi böhran kontekstində bu ölkədə bəzi qüvvələr Qarabağ məsələsindən spekulyativ məqsədləri üçün faydalanmağa cəhd edir, revanşist mövqe sərgiləyirlər. Lakin onların istənilən cəhdi iflasa məhkumdur.

### Ermənistanın iqtisadi dirçəlişi Azərbaycanla sülh müqaviləsindən keçir

Vətən müharibəsi zamanı Azərbaycanın istənilən təxribatı dəmir yumruqla susdurmaq imkanına malik olmasına ermənilər bilavasitə şahidlik edib. Bu mənada, belə təxribatların yenidən ermənilərə baha başa gələcəyini Ermənisytanda yaxşı bilirlər. Məsələni bu rakursdan şərh edən fransalı politoloq Maksim Qauin də bildirir ki, Ermənistan qonşu ölkələrlə münasibətlərini tezliklə yoluna qoymalı, dinc siyasət yürütməlidir: "Əks halda, immiqrasiyanın güclü olduğu bu ölkənin əhalisi kəskin surətdə azala və ermənilərin bu ərazilərdə bundan sonra da qalıb yaşamaları sual altına düşə bilər".

Onun sözlərinə görə, Ermənistanın Azərbaycanla müharibəyə girmək qərarı bu ölkəyə çox baha başa gəldi: "Nikol Paşinyan Azərbaycanla münasibətlərdə mövqeyini tez-tez dəyişən bir obrazdır. Hakimiyyətə gəlməzdən əvvəl Dağlıq Qarabağı boşaltmalı olduqlarını, Ermənistanın bu torpaqlarda heç bir hüququnun olmadığını bildirmişdi. Lakin hakimiyyətə gəldikdən sonra özündən əvvəlkilərdən də artıq millətçi mövqe nümayiş etdirdi. Ermənistanın işğal etdiyi torpaqlar üçün yeni doktrina və yeni müharibə təklif etdi. Lakin bu doktrina ona çox baha başa gəldi. Hakimiyyəti təhlükə altına düşdü, döyüş meydanında gülünc vəziyyətdə qaldı". Qauin bildirir ki, Ermənistanda valideynlər bundan sonra öz övladlarını müasir standartlara uyğun gəlməyən silah-sursatla təchiz olunmuş ordunun tərkibində Azərbaycanın sayca çox və daha mütəşəkkil təlim keçmiş ordusu ilə döyüşə göndərmək niyyətində deyillər: "Nəhayət, Paşinyan tərəflər arasında böyük güc fərqinin olduğunun fərqinə varıb. Bunun üçün ona iki il vaxt lazım oldu. O, Azərbaycan ordusunun gücünü və müasir silahlardan yararlanmaq qabiliyyətini düzgün qiymətləndirmədiyini başa düşüb. Bundan başqa, Paşinyan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi sözün üstündə duracağını da nəzərdən qaçırmışdı. Türkiyənin dövlət başçısı bu münaqişədə Azərbaycanı dəstəkləyəcəyinə söz vermişdi və sonadək sözünün üstündə durdu. Bu gün Paşinyan kimi, onun seçiciləri də üçüncü müharibənin əleyhinədir. Onlar öz övladlarını Azərbaycan hərbçiləri ilə döyüşə göndərmək niyyətində deyillər. Lakin təəsüflər olsun ki, Ermənistanda müxalifət nümayəndələri real vəziyyəti hələ də düzgün qiymətləndirə bilməyiblər". Fransalı politoloq vurğulayır ki, Azərbaycanla sülh müqaviləsi imzalaması Ermənistanın iqtisadi dirçəlişinə səbəb ola bilər: "Görəsən, Paşinyan yolun sonunadək gedərək sülh müqaviləsi imzalayacaqmı? Çünki yolun sonu sülh müqaviləsi, ikitərəfli əlaqələrin yaradılmasıdır. Bu yol Ermənistanın iqtisadi inkişafı üçün vacibdir. Əks halda Ermənistanda immiqrasiya daha da artacaq, ölkə əhalisi kəskin surətdə azalacaq. Ermənistan son 30 ildəki siyasətindən əl çəkməsə, nə Azərbaycan, nə də Türkiyə özünü düşmən ölkə kimi aparan bir dövləti regional layihələrə daxil etməyə razı olacaq". Digər ekspertlər diqqəti ona yönəldir ki, Azərbaycan və Türkiyə ilə Ermənistan sərhədlərinin bağlı olması bu ölkənin iqtisadiyyatının tənəzzülə uğramasının əsas səbəbidir. Sərhədlər bağlı olduğu müddət ərzində Ermənistan iqtisadiyyatının çöküşü davam edəcək.

### Ermənistan üçün Gürcüstan nümunəsi...

Azərbaycan Ermənistanla normal münasibətlərin qurulmasında maraqlı olduğunu indi açıq bəyan edir. Bakının mövqeyinə əsasən, regionda qarşılıqlı hörmət əsasında münasibətlərin qurulması bütün ölkələrin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Məsələn, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Hər iki ölkə birbirini dəstəkləyir, regionda çoxsaylı transmilli layihələr icra edir. Bu, hər iki ölkənin dinamik inkişafında mühüm rol oynayır. Azərbaycan Gürcüstanın ən böyük xarici investorlarından, bu ölkədə ən böyük vergi ödəyicilərindən biridir. Ermənistan Azərbaycanla normal münasibətlər qurmadığından, ölkəmizin Gürcüstan üçün yaratdığı imkanlardan özünü məhrum edib.

Azərbaycan ərazilərini işğal etdiyi dövrlərdə Ermənistan dalana dirənib. Məhz bu işğal nəticəsində regionda son illərdə həyata keçirilən transmilli layihələr, məsələn, Bakı-Tiflis-Qars dəmir yolu xətti Ermənistandan yan keçib. Amma Qarabağ münaqişəsi başa çatdıqdan sonra Ermənistan üçün yeni şanslar yaranıb. Azərbaycanla münasibətlərin normallaşması ilə Ermənistan nəinki ölkəmizlə, həm də Türkiyə ilə yüksəksəviyyəli əlaqələr qura bilər. Yəni Ermənistanın Türkiyə ilə də sərhədləri açıla və bu ölkənin dənizə çıxışı təmin oluna bilər. Digər tərəfdən, Qarabağda qalan ermənilər də ümumi prosesdən faydalanmaq imkanı qazana bilər. Ölkəmizin vətəndaşlığını qəbul edəcəkləri təqdirdə Qarabağ erməniləri Azərbaycanın azad edilmiş ərazilərdə reallaşdırmaqda olduğu müxtəlif sosial və iqtisadi layihələrdən faydalana bilər. Hazırda Qarabağda ermənilər yoxsulluq içində yaşayır. Bu yerlərdə tam işsizlik, yoxsulluq hökm sürür və infrastruktur dağılıb. Lakin Azərbaycan dövləti işğal altındakı əraziləri azad etdikdən sonra Qarabağda yaşayan ermənilərə kömək edə bilər. Bir şərtlə ki, onlar Azərbaycan qanunları çərçivəsində yaşasınlar. Bu da onların yaşadıqları ərazilərin Azərbaycanın digər bölgələri kimi dinamik inkişafına səbəb olacaq.

Yuxarıda qeyd olunduğu kimi, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur. Çünki bu ölkənin bazarı kiçikdir və getdikcə daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir. Bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır və bu gedişlə o daha da azalacaq. Çünki ölkədə məşğulluq səviyyəsi çox aşağıdır, iş yoxdur. İşğal altındakı çox məhsuldar torpaqlardan məhrum olması isə Ermənistanı daha böyük problemlərin, ərzaq qıtlığının gözləməsi deməkdir. İşğal altındakı ərazilərin azad edilməsi ilə Ermənistan mühüm kənd təsərrüfatı seqmentindən məhrum olduğuna görə daha böyük problemlərlə üzləşəcək və ölkə daha tez tənəzzülə uğrayacaq. Bu halda, sosial-iqtisadi çöküşlə yanaşı, Ermənistanın demoqrafiya problemi dərinləşəcək. Azərbaycanın əhalisi 10 milyondan artıq olduğu halda, Ermənistanın əhalisi iki milyondan azdır. Bu fonda ölkənin qarşıdakı illərdə necə yaşayacağı indi bütün erməniləri düşündürməlidir. Əks halda Ermənistan ölkə kimi məhvə məhkumdur. Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmadan bir dövlət kimi Ermənistanın tənəzzülü daha dinamik xarakter alacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**